ədalət 2019.- 16-17 avqust.- S.16.

Adil Əsədli-65

# Sənətlə yaşayan ömür

**İnsanın sənətə gəlişi təsadüfi olmur. İstedad, qabiliyyət onun özü ilə birgə doğulur və nəsildən nəslə ötürülərək yaşaır. Mühit isə insanı formalaşdırır, istedadın bütün parlaqlığı ilə üzə çıxarmasına şərait yaradır. Adil Əsədlinin də gəlişi təsadüfi olmayıb. O, hələ orta məktəbdə oxuyarkən ayrı-ayrı mövzularda rəsmlər çəkib, "Azərbaycan pioneri", "Azərbaycan gəncləri" qəzetlərinə "Pioner" və "Göyərçin" jurnalarına göndərərdi.**

Hər dəfə qəzet və jurnal səhifələrində dərc edilmiş əl işlərini görəndə rəssamlıq sənətinə daha ürəkdən bağlanır. Bu sənətə aid kitabları mütaliə etməyi də unutmur. Öz üzərində çalışırdı. Orta məktəbi bitirdikdən sonra Əzim Əzimzadə adına Dövlət Rəssaslıq Məktəbinə daxil olub. 1980-cı ildə məktəbi fərqlənmə diplomu ilə başa vurduqdan sonra yaratdığı yeni əsərləri mətbuat səhifələrində,rəsmi sərgilərində nümayiş olunur. Sevimli sənətinə ürəkdən bağlanan Adil Əsədli 1986-cı ildə N.Tusi adına APİ-nin bəii qrafika fakültəsini başa vurduqdan sonra Lənkərana qayıtmış burada fəaliyyət göstərən rəssamlıq məktəbinə direktor təyin edilmişdir. O, 34 ildir bu sənət ocağına rəhbərlik edir. Adil müəllim həmdə Lənkəran Dövlət Universitetinin dosenti olmuşdur. Adil müəllim ilk gündən məktəbdə gələcəyin istedadlı rəssamları yetişdirmək üçün səy və bacarığı sərf etmişdir. Onun yetirmələri Türkiyədə, Gürcüstanda, Özbəkstanda, Misirdə, Polşada, Çexiyada, Almaniyada və başqa ölkələrdə medallara layiq görülmüş Azərbaycanı dünyaya tanıtmışdır. Bir çox yetirmələri Respublika və Beynəlxalq miqyaslı sərgilərdən fəxri fərmanlarla qayıtmışdılar.

Rəssamın Bakıda oxuduğu inistitutda Lənkəran Dövlət Universitetində eləcədə qonşu rayonlarda fərdi sərgiləri keçirilmişdir. Onun fırçasından yaranan tablolar



qonşu İran, Türkiyə, Rusiya, Gürcüstan, Özbəkistan, ABŞ, Britaniya, Fransa, Polşa və digər ölkələrin vətəndaşlarına məxsus şəxsi kolleksiyaları bəzəyir.

Sənətkarın 2000-ci ildə, Qrafika əsərləri adlı kitabı oxuculara, təqdim olunmuşdur. Azərbaycan xalça sənəti, "Azərbaycan dekoratitətbiqi sənətində fikir obrazları", "XV-XVI əsrlərdə Azərbaycan Milli geyimləri", "Azərbaycan rəssamları XX əsrdə" adlı elmi- publisist məqalələri onun daim yaradıcılıq axtarışında olduğunu göstərir. Adil Əsədli Azərbaycan Rəssamları İttifaqının üzvüdür.

Bu gündə dövrü mətbuatda maraqlı rəsm əsərləri ilə çıxış edir. Rəssamlar İttifaqı tərəfindən fəxri fərmanlarla təltif olunmuşdur. Haqqında bir neçə dəfə televiziyada film və reportajlar nümayiş etdirilmiş, Respublika mətbuatında yazılar dərc olunmuşdur.

Adil Əsədlinin 100-ə yaxın şagirdi hazırda Respublika, xarici ölkələrin rəssamlıq məktəblərində və Rəssamlıq Akademiyalarında təhsil alırlar. Rəssamın 2016-cı ildə "Azad Azərbaycan" Teleradio şirkəti "ATV qalareyasında" nümayiş olunmuşdur. 2017-ci ildə Adil Əsədliyə Beynəlxalq "Dədə Qorqud" mükafatı verilmişdir. Adil müəllim Azərbaycan Respublikasının Fəxri Mədəniyyət işçisi, Azərbaycan Rəssamlar İttifaqının və jurnalistlər birliyinin üzvüdür. O, bu gündə dövrü mətbuatda maraqlı rəsm əsərləri ilə çıxış edir. Adil müəllim Rəssamlar İttifaqı tərəfindən fəxri fərmanla təltif edilmişdir. Atasının sənətini sevib gələcəyin istedadlı rəssamı olmaq istəyi qızı Şəmsi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına aparmış və o, təhsilini əla qiymətlərlə başa vurmuş, bacarıqlı rəssam kimi çalışır.

**Gözəl və maraqlı rəsm əsərləri ilə çoxsaylı tamaşaçıların rəğbətini qazanan Adil Əsədlinin bu il 65 yaşı tamam olur. Yübleyi münasibətilə onu səmimi qəlbdən təbrik edir, həyatda möhkəm cansağlığı sənət yollarında ona uğurlar arzulayırıq.**

**Azad Zülaloğlu**